# Ev muzeyində 145 illik yubiley tədbiri

**Aprelin 14-də Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə N.Nərimanovun xatirə ev-muzeyində Azərbaycanın görkəmli mütəfəkkiri, ictimai-siyasi və dövlət xadimi Nəriman Nərimanovun anadan olmasının 145 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib.**

Tədbirdə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin nümayəndələri, N.Nərimanovun həyat və fəaliyyətini tədqiq edən nərimanovşünas alimlər, yazıçı və jurnalistlər, N.Nərimanovun qohumları, "Borçalı" İctimai Cəmiyyətinin üzvləri, müxtəlif muzey və kitabxanaların əməkdaşları, orta məktəblərin tarix və ədəbiyyat müəllimləri, KİV nümayəndələri və digər qonaqlar iştirak edib.

Mərasim Nəriman Nərimanovun xatirəsinin anılması məqsədilə Bakının Yasamal rayonundakı abidəsinin ziyarət edilməsi ilə başladı və daha sonra muzeydə davam etdirilib.

Tədbiri muzeyin direktoru Kamilə Hüseynova açaraq N.Nərimanovun həyat yolunu və xatirə muzeyinin iş fəaliyyətini əks etdirən slayd-şou nümayiş etdirib.

Tədbirdə iştirak edən, AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova - Tohidi, tarix üzrə fəlsəfə doktorları Fərhad Cabbarov, Firdovsiyyə Əhmədova, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı Arif Ramazanov, tədqiqatçı jurnalist Şəmistan Nəzərli, tarixçi alim Nazim Vəlişov, sənətşünas, əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, xatirə ev-muzeyinin keçmiş əməkdaşı, hazırda 46 saylı tam orta məktəbin ədəbiyyat müəllimi kimi çalışan İradə Ağayeva və başqaları öz çıxışlarında bildiriblər ki, olduqca şərəfli, həm də əzablı bir ömür yolu keçən, amma sonadək həyatının bütün mənasını xalqına xidmətdə görən Nəriman Nərimanovun əbədiyaşar xatirəsini daim minnətdarlıq hissi ilə yad edirlər. Nərimanovşünas alimlər onun həyatı, ictimai-siyasi və dövlətçilik fəaliyyəti, fəlsəfi görüşləri və s. haqqında danışaraq gənclərimizi Nərimanov irsindən faydalanmağa, bu məqsədlə də tarixi keçmişimizi diqqətlə öyrənməyə, şəxsiyyətləri qiymətləndirərkən əsas meyar kimi onun hansı dünyagörüşünə malik olduğunu deyil, xalqına xidmətini əsas götürməyə səsləyiblər. Səbail rayon MKS-nin əməkdaşı Cəmilə Səmədova və muzeyin fond-satınalma komissiyasının üzvü, jurnalist Rafiq Əliyev muzeyə öz hədiyyələrini - Nəriman Nərimanovun tablosunu və "Molla Nəsrəddin" jurnalının 1920-ci illərdə nəşr edilmiş əsli saylarından ibarət toplunu təqdim ediblər.



Tədbir iştirakçılarına Nəriman Nərimanovla bağlı aşkar edilmiş yeni materiallar və son nəşrlər haqqında da məlumat verilib və onlar muzeyin fonduna yeni daxil olmuş tədqiqat əsərləri, kitab, qəzet, jurnallarla və N.Nərimanovun fərqli illərdə müxtəlif rəssamlar tərəfindən çəkilmiş portretlərindən ibarət sərgi ilə tanış olublar.